**BAKI DÖVLƏT UNİVERSİTETİ**

---

2022-ci ildə___Sosiologiya_______________

kafedrasında (şöbəsində, ETİ, ETM, ETL-də) elmi plan üzrə yerinə yetirilmiş elmi-tədqiqat işlərininnəticələrinin

# HESABATI

**Mövzunun adı:** Sosial təhlükəsizlik probleminin sosioloji təhlili

**Mövzu rəhbərinin soyadı, adı və atasının adı:** Həsənov Rəfail Musa oğlu

**Mövzunun icra müddəti (başlama və bitmə tarixi):** 01 yanvar 2022-ci il - 31 dekabr 2022-ci il

B a k ı - 2022

**Mövzu üzrə icraçılar haqqında məlumat (icraçılar, birinci mövzu rəhbər yazılmaqla):**

| S/S | Soyadı, adı, atasının adı | Təvəllüdü | Vəzifəsi | Ştat vahidi | Elmi adı və elmi dərəcəsi | Ştat vahidləri üçün ikinci iş yeri, yarımştatlar üçün əsas iş yeri |
|---|---|---|---|---|---|---|
| 1. | Həsənov Rəfail Musa oğlu | 12.11.1962 | Sosiologiya kafedrasının müdiri, professor | 0,5 | professor, s.e.d. | BDU, Sosiologiya kafedrası, professor |
| 2. | Əzimov Kazım Ağamirzə oğlu | 10.02.1951 | Professor | 1 | Dosent, f.ü.f.d. | BDU, Sosiologiya kafedrası, professor |
| 3. | Ağayev Tahir Bayram oğlu | 18.10.1956 | Dosent | 1 | Dosent, f.ü.f.d. | BDU, Sosiologiya kafedrası, dosent |
| 4. | Cavadova Hörmət Qənbərəli qızı | 22.05.1953 | Dosent | 1 | Dosent, f.ü.f.d. | BDU, Sosiologiya kafedrası, dosent |
| 5. | İsmayılova Sevil Aydın qızı | 30.09.1967 | Dosent | 1 | Dosent, f.ü.f.d. | BDU, Sosiologiya kafedrası, dosent |
| 6. | Əliyeva Yaqut Nadir qızı | 27.03.1973 | Dosent | 1 | Dosent, s.ü.f.d. | BDU, Sosiologiya kafedrası, dosent |
| 7. | Xəlilova Fərəh Rəhman qızı | 24.08.1976 | Müəllim | 1 | f.ü.f.d. | BDU, Sosiologiya kafedrası, müəllim |
| 8. | Haşımova Südabə Söhrab qızı | 14.06.1973 | Müəllim | 1 | | BDU, Sosiologiya kafedrası, müəllim |

| | |
|---|---|
| 1 | **Mövzu və mövzu üzrə cari ildə yerinə yetirilmiş elmi işlər**<br>*Plan üzrə hər bir mövzunun, hər bir elmi tədqiqat işinin aktuallığı,məqsədi və alınmış elmi nəticələr ayrılıqda göstərilməli, ad soyad tam yazılmalıdır.* |
| | Mövzunun adı: **Sosial təhlükəsizlik probleminin sosioloji təhlili** |

**Elmi tədqiqat işi 1.** Milli təhlükəsizliyin nəzəri-metodoloji problemləri, sosial təhlükəsizlik və qloballaşma mühiti.

**Elmi tədqiqat işi üzrə çalışan əməkdaşlar:** Rəfail Həsənov

**Aktuallığı** Son zamanlar sosiologiyada sosial sferada sabitliyi poza bilən və cəmiyyətin əsas hərəkətverici qüvvəsini - insan potensialını sarsıda bilən çağırış və təhdidlərin qarşısının alınması və dəf edilməsi üçün tədbirlər sistemini özündə ehtiva edən sosial təhlükəsizliyin öyrənilməsi zərurətinə xüsusi diqqət yetirilir. Sosial təhlükəsizlik fərdin, cəmiyyətin və dövlətin həyati mənafelərinin həyatın bütün sahələrində yaranan çağırış və təhdidlərdən sabit müdafiə vəziyyəti, onun təmin edilməsi prosesində təhlükəsizlik subyektlərinin həyata keçirdikləri fəaliyyətdən asılıdır. “Sosial təhlükəsizlik” anlayışının sosioloji kateqoriya kimi dəyişdirilməsi prosesi ilk növbədə dəyərlər oriyentasiyalarının və əxlaqi münasibətlərin dəyişməsi ilə bağlıdır ki, bu da təbii ki, fərdin və cəmiyyətin sosial təminatının yaxşılaşdırılmasına ən çox birbaşa təsir göstərir. Ölkə əhalisinin sosial təhlükəsizliyinin səmərəli şəkildə təmin edilməsi probleminin bir xüsusiyyəti, sosial təhlükəsizlik vəziyyətinin qiymətləndirilməsi üçün ümumi qəbul edilmiş meyarlar sisteminin olmamasıdır. Bu, sosial gərginlik səviyyələrini müəyyən etməyə imkan yaradır ki, ondan sonra əvvəlcədən müəyyənləşdirməyə, operativ qiymətləndirməyə və qarşısını almağa imkan verməyən sabitliyin pozulması başlayır.

**Məqsədi** Tədqiqatın məqsədi sosial sferada sabitliyi poza və insan potensialını sarsıda bilən çağırış və təhdidlərin qarşısının alınması və dəf edilməsi üçün tədbirlər sistemininin işlənilməsi, dəyərlər oriyentasiyalarının və əxlaqi münasibətlərin dəyişməsi ilə bağlı fərdin və cəmiyyətin sosial təminatının yaxşılaşdırılmasına birbaşa təsir göstərən amillərin müəyyənləşdirilməsi, sosial təhlükəsizlik vəziyyətinin qiymətləndirilməsi üçün ümumi qəbul edilmiş meyarlar sisteminin yaradılmasından ibarətdir.

Sosioloji nəzəriyyə çərçivəsində “sosial təhlükəsizlik” kateqoriyasının yaranması və fəaliyyət göstərməsi fərdin, cəmiyyətin və dövlətin həyatı üçün bir sıra mühüm, o cümlədən qlobal təhlükələrin dərk edilməsi zərurəti ilə bağlıdır. Əsas əhəmiyyət kəsb edən məsələlərdən biri insanın məqsədləri, idealları və dəyərləri, maraqları üçün mövcud olan xüsusi təhlükələri dərk etməkdən ibarətdir.

Bu yanaşma ilə ümumi təhlükəsizlik nəzəriyyəsinin formalaşması ilkin olaraq onun sosioloji mahiyyətini müəyyənləşdirir. Məhz bu nəzəriyyədə real, gündəlik həyatda təhlükələrin, təhdidlərin, çağırışların və risklərin təsiri altında sərvətlər əldə edən status və rolların, əlaqələr və münasibətlərin, motivasiyanın və sosial quruluşun real dinamikası haqqında yeni sosioloji biliklər formalaşır, fərdin həyati problemlərinin xarakteri müəyyənləşir.

“Sosial təhlükəsizlik” kateqoriyasının məzmununa cəmiyyətin iqtisadi və sosial həyat tərzi, ictimai və xüsusi mülkiyyət, ictimai qurum və təşkilatlar, milli adət və ənənələr, yaşayış mühiti, maddi və mənəvi dəyərlər kimi anlayışlar daxildir. Sosial tərəfdaşlıq, millətlərarası harmoniya və vətəndaş sülhü olmadan sosial təhlükəsizlik təsəvvür edilə bilməz.

qorumağa çalışan əlavə qorunma mexanizmlərini ehtiva edir.

**Alınmış nəticələr**: Cəmiyyətin təhlükəsizliyinin təmin edilməsinin sosial-hüquqi mexanizmi kimi cəmiyyətin üzvləri, onların birlikləri və dövlət orqanları tərəfindən formalaşdırılan və həyata keçirilən sosial təhlükəsizlik sistemi təmsil oluna bilər.

Sosial təhlükəsizliyin “kütləvi” səviyyədə təmin edilməsinə çalışan çoxsaylı ictimai strukturların yaranması, bir qayda olaraq, kortəbii şəkildə baş verir və bu, çox vaxt insanların həyat tərzinə, ehtiyaclarına və maraqlarına qarşı real və ya ehtimal olunan təhlükə və

təhlükələrə reaksiyasıdır. Beləliklə, cəmiyyət şüurlu və ya şüuraltı olaraq özünü müxtəlif təhlükələrdən qorumağa çalışan əlavə qorunma mexanizmlərini ehtiva edir.

**Elmi tədqiqat işi 2**. Interdisiplinar anlayışların və kateqoriyaların təsnifat modeli.

**Elmi tədqiqat işi üzrə çalışan əməkdaşlar:** Kazım Əzimov

**Aktuallığı:** Tədqiqat işində Sosial elmlərdə interdisiplinar (fənlərarası sahə) tədqiqat metodunun aktuallığı və əhəmiyyəti araşdırılmışdır.

**Məqsədi:** Tədqiqatın məqsədi sosial elmlərin metodologiyasında, nəzəriyyəsində və praktikasında problemin qoyuluşu, əsaslandırılması və aktuallığını müəyyənləşdirməkdən ibarət olmuşdur. Tədqiaqat işində interdisiplinar yaxud fənlərarası sahə yanaşması (paradiqması), metodologiyası, geniş mənada bilik, tədqiqat, nəzəriyyə, təhsil və didaktika kimi elm sahələrini əhatə edən bir ümumi anlayışdır. Elmi işdə ilk dəfə interdisiplinar sahənin, interdisiplnar paradiqmanın davamlı irəliləməsinə səbəb olan amillər izah edilir, interdisiplinar paradiqmanın aktuallığı, anlayış və kateqoriyaları sosial-mədəni və tarixi konteksdə ətraflı araşdırılmışdır. İnterdisiplanar elmi yanaşma paradiqmasının nüvəsini təşkil edən anlayışlar və kateqoriyalar sistemli şəkildə təhlil edilmişdir......

**Alınmış nəticələr:** Tədqiqat işində müəyyən olunmuşdur ki, nəinki sosial elmlər, həmçinin təbiət, həyat və insan haqqında elmlərin istifadə etdikləri tədqiqat metodlarının ən azı 150-200 il yaşı var. Elmi-texniki və sənaye inqilablarından miras qalmış tədqiqat metodları müasir İKT və biliklərə əsaslanan post-sənaye informasiya cəmiyyətinin tələblərinə və elmi-texnoloji ideallarına ziddir. Burdan belə bir nəticəyə gəlmişik ki, sosial elmlərdə istifadə olunan ənənəvi elmi paradiqmalar, ontoloji və epistemoloji yanaşmalar artıq köhnəlmişdir, onların yeni paradiqmalarla, xüsusən interdisiplinar paradiqmalarla əvəzlənməyin vaxtı çoxdan çatmışdır.

**Elmi tədqiqat işi 3**. Sosial institutların funksiyaları və disfunksiyallığı

**Elmi tədqiqat işi üzrə çalışan əməkdaşlar:** Tahir Ağayev

**Aktuallığı:** Sosial institutla ictimai mühit arasında qarşılıqlı təsirdə mühüm cəhət müvafiq sosial tələbatın ödənilməsidir. Bu tələbatların ödənilməsi sosial institutların funksiyaları vasitəsi ilə həyata keçirilir. Ödənilməyən sosial tələbat normativ şəkildə tənzimlənməyən fəaliyyət növlərinin meydana çıxmasına səbəb ola bilər. Sosial institutların funksiyalarının pozulması isə müvafiq cinayətkarlığın artması ilə müşayiət olunur. Bunun da nəticəsində sosial institutların fəaliyyətini, eləcə də cəmiyyətin sabitliyi pozula bilər. Ona görə də bu cür hüquq pozuntularının qarşısını almaq üçün sosial təlabatları reallaşdırarkən hər bir institut öz üzvlərinin birgə fəaliyyətini təmin edən funksiyaları yerinə yetirməlidir. Sosial institutların funksiyalarının nəzərdən keçirilməsi həmin institutların disfunksiyası problemini aktuallaşdırır. Müasir sosiologiyada disfunksiya bu və ya digər sosial institutun sosial mühitlə normativ qarşılıqlı əlaqələrin pozulması kimi qiymətləndirilir. Bu halda onların fəaliyyəti sosial mühitə və insanların həyat şəraitinə neqativ təsir göstərir. Bu, xüsusən cəmiyyətin sistemli böhranı dövründə özünü daha aydın şəkildə nümayiş etdirir. Adətən, sosial institutların tam disfunksiyasız vəziyyəti olmur, çünki onların hər biri daim dəyişilir və inkişaf edir.

İnstitutun iş şəraiti, onun sosial mühitlə əlaqəsi və mövcudluğunun daxili faktorları dəyişilir.
**Məqsədi:** Sosial institutların müvəffəqiyyətli fəaliyyəti üçün disfunksiya hallarının qarşısının alınmasının aşağıdakı faktorlarını göstərmək olar: məqsədlərin, sosial statusların və rolların dəqiq müəyyən edilməsi; fəaliyyət növlərinin səmərəli bölgüsü, düzgün və bacarıqla təşkili, o cümlədən effektiv idarəetmə və rəhbərlik; sosial institutların daha geniş institutlar sisteminə mümkün qədər münaqişəsiz qoşulması.
**Alınmış nəticələr:** Sosial institutla ictimai mühit arasında qarşılıqlı təsirdə mühüm cəhət müvafiq sosial tələbatın ödənilməsidir. Ödənilməyən sosial tələbat normativ şəkildətənzimlənməyən fəaliyyət növlərinin meydana çıxmasına və sosial mühitin sabitliyinin pozulmasına səbəb olur.
Arzuların, istəklərin deyil, real nəticələrin öyrənilməsi, sosial institutların funksiyalarını empirik faktlar əsasında təhlil etməyə, həmçinin bu təhlilin spektrini genişləndirməyə imkan verir.
Sosial institutların tam disfunksiyasız vəziyyəti olmur, çünki onların hər biri daim dəyişilir və inkişaf edir. Sosial institutların müvəffəqiyyətli fəaliyyəti üçün disfunksiya hallarının qarşısının alınmasında aşağıdakı faktorlar nəzərə alınmalıdır: məqsədlərin, sosial statusların və rolların dəqiq müəyyən edilməsi; effektiv idarəetmə və rəhbərlik; sosial institutların daha geniş institutlar sisteminə mümkün qədər münaqişəsiz qoşulması və s.

**Elmi tədqiqat işi 4.** Sosial təhlükəsizlik sahəsində dinin rolu.
**Elmi tədqiqat işi üzrə çalışan əməkdaşlar:** Hörmət Cavadova
**Mövzunun adı:** Sosial təhlükəsizlik sahəsində dinin rolu
**Aktuallığı**: Dünyada cərəyan edən, sülh və beynəlxalq təhlükəsizlik üçün təhdid xarakteri daşıyan geosiyasi proseslərin dinamik inkişafı fonunda ictimai-siyasi həyatda din amili sosial təhlükəsizlik sahəsində dinin rolunu daha da aktuallaşdırıb.
**Məqsədi:** Din təkcə ictimai təfəkkürə deyil, mədəniyyətə, siyasi mövqeyə, insanların mənəvi həyatına ciddi təsir göstərən siyasi vasitəyə çevrilməkdədir.Bu gün din beynəlxalq aləmdə güclü ideoloji təsirə malikdir. Bir çox ölkələrdə ictimai-siyasi vəziyyətin gərginləşdirilməsi, sabitliyin pozulması məqsədilə dindən ideoloji vasitə kimi də istifadə edilməsi tendensiyası formalaşmışdır. Bu baxımdan dünyada sülhün və əmin-amanlığın qorunub saxlanılması sahəsində dinin və dini təşkilatların rolunu araşdırmaq

**Elmi tədqiqat işi 5.** Müasir Türkiyə cəmiyyətində xeyriyyəcilik təşkilatların fəaliyyəti
**Elmi tədqiqat işi üzrə çalışan əməkdaşlar:** Sevil İsmayılova
**Aktuallığı:** Bildiyimiz kimi, xeyriyyəçilik mövzusu bu gün də öz aktuallığını saxlamaqdadır. Yoxsulluq və varlılıq müasir həyatın reallıqlarıdır və bu baxımdan biz xeyriyyəçiliyi xatırlayırıq. Xeyriyyəçilk fəaliyyəti bütün dünyada aparılır. Dövlət səviyyəsində xüsusi qurumlar sistemləri yaradılır, eləcə də vətəndaşlar ehtiyacı olanlara şəxsən və ya müxtəlif təşkilatlar vasitəsi ilə yardım edirlər. Bu gün xeyriyyəçilik ümumbəşəri dəyərdir, vətəndaş cəmiyyətinin ən mühüm atributlarından biridir. Sosial dövlətin mühüm funskiyalarından biri də xeyriyyəçilik fəaliyyətinin genişləndirilməsidir..

**Məqsədi:** Müasir Türkiyə cəmiyyətində xeyriyyəcilik təşkilatlarının fəaliyyətini araşdırmaq və yeni müasirləşmiş vakfların fəaliyyətini göstərmək.

**Alınmış nəticələr**: XX-ci əsrin 60-cı illərində Türkiyədə vaqflar yeni formada fəaliyyətə başladı. 1967-ci ildə Türkiyə Mülki Məcəlləsinə düzəlişlər edildi ki, bu da "vəqf" anlayışının özünü ictimai hüquqi leksikona qaytardı. Türkiyədə müasir xeyriyyə təşkilatıları normativ aktlara əsaslanır. 1977-ci ildə 2022 saylı qanuna əsasən ehtiyacı olanlara -65 yaşına çatmış əlillərə və tənha qocalara ödənişlər haqqında qanun imzalanmış və bu da indiki anlayışda sosial yardım anlayışının doğulması sayıla bilər. 1984-cü ildə Xeyriyyə Vəqfləri Baş İdarəsinə müxtəlif sosial yardımlar göstərmək səlahiyyəti verildi. 2008-ci ildə vəqflər haqqında yeni qanun qəbul edildi ki, bu da bu qurumun islahatının növbəti mərhələsini tamamladı

Ümumiyyətlə 1990-2000-ci illərdə Türkiyədə vəqflərin inkişafının yeni dövru başladı. Bu sahədə kifayət qədər çoxlu sayda "dünyəvi", qeyri-islam xarakterli könüllü təşkilatları birləşdirən yeni qurumun meydana çıxması ilə bağlıdır. - "Türkiyənin "üçüncü sektoru"nun vəqfi" və ya TÜSEV. Bir neçə il ərzində TÜSEV.700-dən çox vəqfi öz sıralarına cəlb edə bilmişdir. Bu mərhələ həm də ona görə əlamətdardır ki, indi vəqflər başqa məsələlərlə yanaşı, vətəndaş fəaliyyətinin inkişafı və həyata keçirilməsi mexanizmlərinə çevrilir.

**Elmi tədqiqat işi 6**. Sağlamlıq uşaqların şəxsiyyətinin formalaşmasında mühüm amil və keyfiyyət xarakteristikası kimi.

**Elmi tədqiqat işi üzrə çalışan əməkdaşlar:** Yaqut Əliyeva.

**Aktuallığı:** Uşaqlar 0-18 yaş arasında cəmiyyətin ilkin sosial-demoqrafik qrupudur. Uşaqların xüsusi ehtiyacları, hüquqları və maraqları var. Amma eyni zamanda, onlar özlərini cəmiyyət qarşısında müdafiə etmək və qorumaq üçün kifayət qədər qabil deyillər. Uşaqlar dövlətin, cəmiyyətin, məktəbin və ailənin onların inkişafı üçün təmin etdiyi şəraitdən asılıdır. Uşaqların şəxsiyyətinin formalaşması və inkişafı prosesinin optimallaşdırılması problemi dövrümüzün fundamental, prioritet və aktual sosial problemlərindən biridir. Bu proses həm şəxsiyyət, həm də cəmiyyətin sosial səriştəsinin formalaşması üçün mühüm əhəmiyyət kəsb edir. Ümumiyyətlə, qloballaşma şəraitində uşaqların şəxsiyyətinin formalaşması və inkişafı probleminin təhlili həm nəzəri, həm də praktik baxımdan olduqca aktualdır. İşin bu hissəsində saglamlıq uşaqların şəxsiyyətinin formalaşmasında mühüm və keyfiyyət xarakteristikası kimi (Azərbaycan Respublikasının timsalında) araşdırılmışdır. Tədqiqatın predmeti uşaqların şəxsiyyətinin formalaşmasına mühüm amil və keyfiyyət xarakteristikaları kimi sağlamlığın təsirinin öyrənilməsidir. Sağlamlıq uşağın əmək qabiliyyətinin və normal ahəngdar inkişafının vacib amili və keyfiyyət xarakteristikasıdır. Uşaqların tərbiyəsi, təlimi və təhsilinin səmərəliliyi onların sağlamlığından, cəmiyyətin inkişaf perspektivləri isə uşaqların sağlamlığından asılıdır. Ona görə də dövlət uşaqların sağlam inkişafında maraqlı olmalıdır.Tədqiqatın obyekti 0-18 yaş arası uşaqlardır. Mövzunun tədqiqi üçün xarici ölkələrin ədəbiyyatından təcrübə öyrənilmiş və yerli tədqiqatçıların əsərləri tədqiq edilmişdir. Tədqiqat işində yeni ideyalar və təklifkər irəli sürülmüş, yeni yanaşmalar təklif edilmiş və prioritetlər göstərilmişdir. Mövzu kompleksli, sistemli olaraq araşdırılmışdır.

**Məqsədi:** Tədqiqatın məqsədi uşaqların sağlamlıq potensialını (fizioloji, psixoloji, sosial aspektlərini) qiymətləndirilmək, uşaqların

sağlamlığının qorunmasını və perspektivlərini müəyyən edən başlıca amillərini araşdırmaqdan ibarətdir. Tədqiqatın vəzifələri - uşaq sağlamlığı və cəmiyyətin inkişaf perspektivlərini öyrnmək; uşaqların sağlamlıq potensialını (fizioloji, psixoloji, sosial aspektlərini) qiymətləndirilmək; uşaqların sağlamlığının qorunmasını və perspektivlərini müəyyən edən başlıca amillərini müəyyən etmək; cəmiyyətin sosial təhlükəsizliyini proqnozlaşdırmaqdan ibarətdir.

**Alınmış nəticələr:** Tədqiqatda uşaqların sağlamlıq potensialını qiymətləndirmək üçün fizioloji, psixoloji və sosial aspektləri təhlil edilmişdir. Eyni zamanda, uşaqların sağlamlığının qorunmasını və perspektivlərini müəyyən edən əsas amilləri öyrənmək çox vacib bilinmişdir. Xüsusi diqqət müxtəlif şəraitli ailələrdən olan sağlamlıq imkanları məhdud (əlil uşaqlar) uşaqlara ayrılmlşdır. Belə vəziyyətdə olan uşaqların sağlamlıq problemi, onların qeyri-bərabər və fəqrli imkan və şəraiti həmin uşaqların şəxsiyyətinin formalaşmasına ciddi təsir göstərir və bu məsələ hər bir dövlətin sosial siyasətinin aktual məsələlərindən biri olmalıdır. Göründüyü kimi, bu mövzunun araşdırılması çox əhəmiyyətlidir. Belə ki, bu məsələ, daha dərin elmi və praktik metod və metodologiyalar sayəsində araşdırmaq olar. Bunun üçün ailənin, təhsil və səhiyyə sisteminin, dövlətin sosial siyasətinin intensivləşdirilməsi zəruridir. Çünki cəmiyyətin sosial təhlükəsizliyi, gələcəyi uşaqların bu günki fizioloji, psixoloji, emosional və sosial sağlamlığı vəziyyətindən və bunun nəticəsində onların bir şəxsiyyət kimi formalaşmasından asılıdır. Tədqiqatın elmi nəticələri universitetlərdə keçirilən mühazirə kurslarının hazırlanmasında istifadə oluna bilər. Eləcə də nəzəri nəticələr fəaliyyəti uşaqların sağlamlıq problemləri, uşaqların şəxsiyyətinin formalaşması və inkişafı, optimallaşdırılması, dövlətin sosial siyasəti və s. ilə bağlı olan təşkilatlar üçün faydalı ola bilər. Uşaqların sağlamlığının qorunması prosesində müxtəlif amillər arasında görünən ziddiyyət nə dərəcədə optimal və ardıcıl şəkildə həll olunursa, o da öz növbəsində onların sağlam olmasına, şəxsiyyətinin formalaşmasına, gələcək cəmiyyətin ahəngdar və səmərəli qurulmasına təsir göstərir. Çünki uşaqlar cəmiyyətin gələcəyidir.

**Elmi tədqiqat işi 7**. Müasir dünyada sosial transformasiyalar və beynəlxalq hüququn effektivliyinin təmin olunması
**Elmi tədqiqat işi üzrə çalışan əməkdaşlar:** Fərəh Xəlilova

**Aktuallığı:** Elmi-tədqiqat işində müasir qloballaşan dünyada baş verən sosial dəyişikliklər və transformasiyalar tədqiq olunur və bununla bağlı yaranmış vəziyyətdə beynəlxalq hüquq institutunun effektivliyi problemi araşdırılır.

Müasir dünya birliyinin fəaliyyət göstərdiyi şərait, mövcud hadisələr və proseslər, yaranan ziddiyyətlər və münaqişələr getdikcə bizləri bütün bəşərriyatın taleyinin vəhdətinin dərk olunmasını və bununla bağlı yer üzündə bütün insanların dinc şəraitdə yaşamasının təmin olunması ilə bağlı müvafiq mexanizmlərin inkişafını və realllaşdırılmasını zəruri edir. Son zamanda baş verən hadisələr bizi getdikçə daha da çox onu ddüşünməyə vadar edir ki, əməkdaşlıq üçün beynəlxalq-hüquqi bazanın formalaşması və inkişafına baxmayaraq, beynəlxalq hüquq sisteminin effektivliyinin təmin olunması ilə bağlı ciddi problemlər mövcuddur. Aydındır ki, beynəlxalq hüququn effektivliyinin dərəcəsinin artırılması ilə bağlı tövsiyələr məsələnin obyektiv və subyektiv tərəflərinə yönlənməlidir, hansılar kı, şübhəsiz, bir-biri ilə əlaqəlidir. Təbii ki, beynəlxalq aktorların iradəsi olmadan bu məsələdə heç bir inkişaf gözləmək olmaz. Lakin

| | |
|---|---|
| | eyni zamanda təbiidir ki, müvafiq şərait olmadan bu mümkün deyil. Çoxlu sayda mövcud şəraitlər arasında xüsusi olaraq beynəlxalq səviyyədə sosial kapitalın inkişafını qeyd etməl lazımdır ki, bu da beynəlxalq aktorların əksəriyyətinin düşüncəsinin yüksək dərəcədə eqoist xarakterli olduğundan heç də asan məsələ deyil.<br>**Məqsədi:** Müasir dünyada baş verən sosial transformasiyaları təhlil etmək və bununla bağlı mövcud şəraitdə beynəlxalq hüququn effektivliyinin təmin olunması problemini araşdırmaq.<br>**Alınmış nəticələr:** Müasir dünyada baş verən hadisələr və proseslər beynəlxalq hüquq institutunun effektivliyi ilə bağlı məsələləri aktuallaşdırır. Beynəlxalq hüququn reallıqda icra olunması ilə bağlı ciddi problemlər mövcuddur. Beynəlxalq səviyyədə sosial kapitalın inkişafı mövcud problemin həll olunması istiqamətində əsas amillərdən biri kimi çıxış edir. Beynəlxalq səviyyədə sosial kapitalın lazımi səviyyədə reallaşdırılması təbii olaraq onun formalaşması və həyata keçirilməsi mexanizminin işlənməsini tələb edir ki, bu da öz növbəsində müvafiq şərait və resursların mövcudlğunu tələb edir<br><br>**Elmi tədqiqat işi 8**. Dünya ölkələrində siyasi sosiallaşma prosesinin formalaşması mexanizmləri<br>**Elmi tədqiqat işi üzrə çalışan əməkdaşlar:** Südabə Haşımova.<br>**Aktuallığı:** Cəmiyyətin siyasi sosiallaşması istənilən dövlətin həyatında xüsusi yer tutur. Xüsusi ictimai hadisə olmaq etibarilə, dövlət siyasəti insanların fəaliyyətinin ən əhəmiyyətli sferasıdır. Cəmiyyətin siyasi sistemdəki dəyişikliklərə təsir etmək qabiliyyəti həm dünya təcrübəsində, həm də Azərbaycan tarixində baş verən proselərlə dəfələrlə nümayiş etdirilmişdir. Azərbaycan cəmiyyətinin siyasi sosiallaşması vəziyyəti və perspektivlərini hərtərəfli öyrənməyə ehtiyac ictimai inkişafın müasir mərhələsində baş verən dəyişikliklərdə iştirak dərəcəsi ilə bağlıdır. Elmi-tədqiqat işinin başlıca məqsədi Azərbaycan cəmiyyətində siyasi sosiallaşma prosesinin əsas istiqamətlərini və xüsusiyyətlərini araşdırmaq, onun təkmilləşdirilməsinə dair təkliflərin hazırlanmasıdır. Siyasi sosiallaşma cəmiyyətin inkişaf səviyyəsindən və siyasi sisteminin növündən asılı olaraq fərqli şəkildə həyata keçirilir.Problemin öyrənilməsi həm demokratik, həm avtoritar cəmiyyətlərdə siyasi sosiallaşma prosesinin formalaşması mexanizmlərinin araşdırılmasını zəruri edir.<br>**Məqsədi:** Dünya ölkələrində Qərb və Şərq təcrübəsində siyasi sosiallaşmanın əsas xüsusiyyətlərinin, siyasi sosiallaşma növlərinin, yeni növ siyasi sosiallaşma prosesininin araşdırılmasıdır.<br>**Alınmış nəticələr:** Siyasi davranış və iştirakın köhnə modelləri çox vaxt yeni siyasi reallıqlara cavab vermir. Yeni modellər olduqca ləng formalaşır və mənimsənilir. Bu da öz növəsində siyasi təhsil problemini aktuallaşdırır: digər ölkələrin siyasi təcrübəsi ilə tanış olmaq və onu mənimsəmək, siyasi sistemlərin fəaliyyət xüsusiyyətlərini, onlara təsir etmə yollarını, şəxsi və qrup maraqlarını həyata keçirmək, xarici təcrübəni yerli ənənələrə uyğunlaşdırma imkanlarını öyrənmək tələb olunur. Siyasi sosiallaşmanın formalaşması yalnız humanitar və siyasi təhsil sistemi ilə məhdudlaşmır, yeni sosiallaşma institutlarının yaradılmasını zəruri edir. |
| **2** | **Hesabat dövründə alınmış ən mühüm elmi nəticələr**<br>*Ən mühüm nəticələr səlis və konkret yazılmalıdır* |
| | 1. Əsas əhəmiyyət kəsb edən məsələlərdən biri insanın məqsədləri, idealları və dəyərləri, maraqları üçün mövcud olan xüsusi |

| | |
|---|---|
| | təhlükələri dərk etməkdən ibarətdir.Cəmiyyətin təhlükəsizliyinin təmin edilməsinin sosial-hüquqi mexanizmi kimi cəmiyyətin üzvləri, onların birlikləri və dövlət orqanları tərəfindən formalaşdırılan və həyata keçirilən sosial təhlükəsizlik sistemi təmsil oluna bilər.<br>**2.** Təbiət elmləri sahəsində interdisiplinar paradiqma - təbiət elmlərinin real dünya problemlərinin araşdırılmasına daha çöx maraq göstərməsi həmin elmləri getdikcə fənlərarası (interdisiplinar) yanaşma metoduna yaxınlaşdırır. Real dünya fenomenlərini mürəkkəbliyi çox vaxt vahid bir fənn yanaşmasından (riyaziyyat, fizika, biologiya və s.) istifadə etməyi rədd edir. Problemlə maraqlanan digər fənlərin və sahələrin tədqiqatlarından, metodlarından, nəzəriyyə və anlayışlarından istifadə edilməsi tələb olunur. Məsələn, Yer iqlimi kimi kompleks təbii sistemlər, o cümlədən okean axınları, qütb və dağ buzlaqlarının əmələ gəlməsi, məhv olması, günəş radiasiyası, torpaq sürüşməsi, torpaq örtüyü və digər proseslər daxil olmaqla ona töhfə verən bütün alt sistemlər nəzərə alınmadan tam başa düşülə bilməz.<br>Sosial elmlər sahəsində. İnsan cəmiyyətləri mürəkkəb sistemlərdən təşkil olunmuşdur. Sosial elmlərdə problemlər tədqiqatçılardan (ənənəvi olaraq, antropoloqlar, iqtisadçılar, politoloqlar, psixoloqlar, pedaqoqlar və sosioloqları əhatə edir) coğrafiyanın, tarixin, təhsilin, mədəni ənənələrin, müharibələrin və müqəddəs inanc sistemlərinin təsirlərini araşdırarkən ayrıca fənn sərhədlərini keçmələrini tələb edir. İnterdisiplinar paradiqma elmi yanaşma kimi humanitar elm sahəsində formalaşdırılmışdır, sonrası sosial emlər və dəqiq elmlər sahəsində XX əsrin sonu və XXİ əsrdə geniş yayılmışdır.<br>Təhsil sahəsində. Universitetdə və akademiyada interdisiplinar paradiqma təhsil və tədqiqatın təbiətində baş vermiş dəyişikliklərlə bağlıdır. Bu səbəbdən, interdisiplinar paradiqmalar, nəzəriyyələr, metodlar, biliklər və s. ixtisas fənləri üçün mütləq təməldir. Daha çox interdisiplinar tədqiqatın vurğulanması həm maddi, həm də elmi cəhətdən mühüm və əlverişlidir. |
| **3** | **Dərc olunmuş elmi işlərin xarakteristikası** |
| | **3.1. Mövzu üzrə Web of Science bazasına daxil olan Q1-Q4 kvartil reytinqinə düşən beynəlxalq jurnallarda çıxan məqalələr**<br>*Müəlliflərin ad və soyadları, jurnalın adı tam şəkildə yazılmalı;Dərc olunmuş, qəbul olunmuş və ya çapa göndərilmişdir kimi göstərilməli;mənbənin* ***internetdəki linki göstərilməlidir*** |

**Q1 üzrə:**

| | Müəlliflərin ad və soyadları tam şəkildə yazılmalı | materialın adı | harda yayılıb | materialın dərc olunduğu, qəbul olunduğu və ya çapa göndərildiyi haqqında qeyd | mənbənin internetdəki linki, İD |
|---|---|---|---|---|---|
| | **Yoxdur** | | | | |

| Q2 üzrə: | | | | | |
|---|---|---|---|---|---|
| | *Müəlliflərin ad və soyadları tam şəkildə yazılmalı* | *materialın adı* | *harda yayılıb* | *materialın dərc olunduğu, qəbul olunduğu və ya çapa göndə-rildiyi haqqında qeyd* | *mənbənin internetdəki linki, İD* |
| | **Yoxdur** | | | | |
| **Q 3 üzrə** | | | | | |
| | *Müəlliflərin ad və soyadları tam şəkildə yazılmalı* | *materialın adı* | *harda yayılıb* | *materialın dərc olunduğu, qəbul olunduğu və ya çapa göndə-rildiyi haqqında qeyd* | *mənbənin internetdəki linki, İD* |
| | **Yoxdur** | | | | |
| **Q 4 üzrə** | | | | | |
| | *Müəlliflərin ad və soyadları tam şəkildə yazılmalı* | *materialın adı* | *harda yayılıb* | *materialın dərc olunduğu, qəbul olunduğu və ya çapa göndə-rildiyi haqqında qeyd* | *mənbənin internetdəki linki, İD* |
| | **Yoxdur** | | | | |

**3.2.Mövzu üzrəScopus, ERIH PLUS, Philosopher's Index, Copernicus, Ulakbim, PsycINFO və ya EconLit bazalarına daxil olan jurnallarda çıxan məqalələr**

| | *Müəlliflərin ad və soyadları tam şəkildə yazılmalı* | *materialın adı* | *harda yayılıb* | *materialın dərc olunduğu, qəbul olunduğu və ya çapa göndə-rildiyi haqqında qeyd* | *mənbənin internetdəki linki, İD* |
|---|---|---|---|---|---|
| *1* | *Sevil İsmayılova* | Сравнительный анализ благотворительной деятельности Турции и Азербайджана | *Восточно Европейский научный журнал. Санкт-Петербург. №4 (80)2022, часть 1. s.25-29.* | Çap olunub | *https://eesa-journal.com* |

**3.3. Mövzu üzrə digər (1-2-ci bənddən fərqli) beynəlxalq jurnallarda çıxan məqalələr**

*Müəlliflərin ad və soyadları, məqalənin adı, jurnalın parametrləri tam şəkildə yazılmalı;Dərc olunmuş, qəbul olunmuş və ya çapa göndərilmişdir kimi göstərilməli;mənbənin internetdəki linki göstərilməlidir*

| | *Müəlliflərin ad və soyadları tam şəkildə yazılmalı* | *materialın adı* | *harda yayılıb* | *materialın dərc olunduğu, qəbul olunduğu və ya çapa göndərildiyi haqqında qeyd* | *mənbənin internetdəki linki, İD* |
|---|---|---|---|---|---|
| *1* | Sevil İsmayılova | Сравнительный анализ волонтерской деятельности в Азербайджане и в Европе | Международный научно-исследовательский журнал Евразийский Союз Ученых. Серия: Исторические, политические и социологические науки. Выпуск 12/93. Том №1, 2021. s.14-16 | Çap olunub | https:hist-pol.euroasia-science.ru/ index.php/Euroasia/issue/view/125 |

| | | | | | |
|---|---|---|---|---|---|
| 2 | Hörmət Cavadova | Müasir pedaqogikanın metodoloji problemləri | Elmi Iş. Beynəlxalq Jurnal. Impakt Factor : 1.790.2022/ Cild: 16. Sayı:6 | | |

**3.4.Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi yerli elmi jurnallarda dərc olunmuş məqalələr**

| | *Müəlliflərin ad və soyadları tam şəkildə yazılmalı* | *materialın adı* | *harda yayılıb* | *materialın dərc olunduğu, qəbul olunduğu və ya çapa göndə-rildiyi haqqında qeyd* | *mənbənin internetdəki linki, İD* |
|---|---|---|---|---|---|
| 1 | Rəfail Həsənov | Dövlət mədəniyyət siyasəti milli təhlükəsizlik strategiyasının tərkib hissəsi kimi | Əmək və sosial münasibətlər. Elmi-praktiki jurnal №2 (16)2021 s.5-12 | Çap olunub | UOt-316 |
| 2 | Hörmət Cavadova | M.F.Axundzadə cəmiyyətin tərəqqisində elmin və maarifin rolu haqqında | Əmək və sosial münasibətlər. Elmi-praktiki jurnal №2 (16)2021 s.13-20 | Çap olunub | UOt-316 |
